# Bu Zəfər 44 günün yox, 17 ilin möcüzə xarakterli uğurudur



***Beynəlxalq münasibətlər ideallıqdan tamamən uzaqdır. Hazırda beynəlxalq siyasət hər dövlətin öz millətinin gücünün artırılması, digər millətlərin gücünün zəifləndirilməsi prinsipinə söykənir.***

***ABŞ politoloqu, diplomat Hans Morgentaunun "Politics Among Nations. The Struggle for Power and Peace" ("Millətlər arasındakı siyasi münasibətlər. Hakimiyyət və sülh uğrunda mübarizə") kitabından***

***Bəri başdan qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyev son 17 ildə təkcə dövlətimizin qüdrətinin artırılmasına nail olmadı, o, həm də millətimizin gücünü qat-qat artıra bildi. Bu proses isə cənab dövlət başçımızın özünün də qeyd etdiyi kimi, Ermənistan dövlətinin zəifləndirilməsi və erməni millətinin gücünün neytrallaşdırılması fonunda baş verdi. Bütün bunlar məlum həqiqətlərdir.***

Ancaq bu yazıda qələmə almaq istədiyimiz həqiqətlər olduqca çoxdur. Belə ki, 2020-ci ilin başa çatmasıyla, həm də Prezident İlham Əliyevin Azərbaycanın dövlət başçısı sükanının arxasına keçməsinin 17-ci ili tamamlanmış oldu. 17 il bundan əvvəl Azərbaycanın gələcək taleyinə görə məsuliyyəti öz çiyinləri üzərinə götürəndə İlham Əliyevin cəmi 42 yaşı vardı. Əlbəttə, bu böyük və ağır məsuliyyət onun üzərinə cavan yaşlarında düşmüşdü. Xatırlayırsınızsa, həmin vaxt bir çoxları Azərbaycan kimi mürəkkəb kataklizmlərdən keçməkdə olan bir ölkəni Heydər Əliyev kimi nəhəng siyasət qrossmeyestrindən sonra kimsənin asan idarə edə bilməyəcəyini, ölkəmizdə çoxlu təlatümlü proseslərin baş verəcəyini düşünür və proqnozlaşdırırdılar.

Həmin şəxslər eynilə gənc Prezident İlham Əliyevin də ölkəni uğurla idarə edəcəyinə şübhə ilə yanaşdıqlarını gizlətmirdilər. Bu bədxah şəxslər içlərindən gələn xain sevinc hissləri ilə gənc dövlət başçısının tezliklə uğursuzluqla üzləşəcəyini xüsusi səbirsizliklə gözləyirdilər. Lakin zaman və reallıqlar onların bütün qara proqnozlarını boşa çıxardı, ümidlərini puç etdi. İlham Əliyev onları sevindirmədi. O, atasının layiqli davamçısı olduğunu və uğurlu siyasətçi obrazını təqdim etməyi bacardı. Böyük siyasət ustasının oğlu Zamanın çağırışı və xalqın seçimi ilə ona həvalə olunan bu şərəfli missiyanın öhdəsindən heyrətamiz dərəcədə ustalıqla və uğurla gəldi. İlham Əliyev ulu öndərimizin vaxtilə müdrik uzaqgörənliklə ona göstərdiyi etimadı doğrultdu.

Ulu öndərin həmin vaxt İlham Əliyev haqqında söylədiyi o sözləri yəqin ki, hər kəs xatırlayır: "Mən ona özüm qədər inanıram". Bu həqiqətən də çox böyük etimad idi və bu etimadı şərəflə, ləyaqətlə, üz ağlığı və alın açıqlığı ilə doğrultmaq heç də asan deyildi. Böyük dövlət xadiminin dediyi kimi, o, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsdir.

Xatırlayırsınızsa, İlham Əliyev prezident seçildiyi ilk gündən hər bir azərbaycanlının prezidenti olacağına söz vermişdi. O, bu sözünü tutdu, bu vədinə əməl etdi. Və bu vədin yerinə yetirilməsinin ən son akkordu isə İkinci Qarabağ müharibəsindəki müzəffər Qələbəmiz oldu. Adını tariximizə islahatçı lider kimi yazdırmış İlham Əliyev Qarabağın mənfur erməni işğalçılarından azad edilməsi ilə nəticələnən Vətən Müharibəsinin gedişində Ordumuza uğurla sərkərdəlik etməsi ilə ən yeni tariximizin 17 illik dönəmini möhtəşəm bir sonluqla – Zəfər Paradı ilə qapatmış oldu. Beləliklə, Vətən Müharibəsindəki şanlı Qələbəmiz yeni Azərbaycanın doğulmasına yol açdı. Yeni Azərbaycanın memarı missiyası da heç şübhəsiz ki, İlham Əliyevin üzərinə düşür.

Mən bu yazıda Prezidentimizin həyat yolunun mərhələlərini və 17 illik prezidentlik dönəminin uğurlarını xronoloji ardıcıllıqla və bütün detalları ilə sadalamaq istəmirəm. Razılaşarsınız ki, bu böyük ömrün bütün akkordlarını qeyd etmək və izahını vermək üçün bir yazı bəs etməz. Ona görə də, diqqətimizi məhz İkinci Qarabağ müharibəsi üzərində fokuslamaq istəyirəm. Nədən, niyə və nə üçün? Çünki 44 günlük müharibədəki Zəfər İlham Əliyevin 17 illik gərgin fəaliyyətinin məntiqi yekunu və həm də şah əsəridir. Əgər biz "İlham Əliyevin prezidentlik dövrünü necə səciyyələndirmək olar?" sualını cavablandırmalı olsaq, "İlham Əliyev Qarabağın xilaskarıdır", -- deyib, bircə cümlə ilə də söhbətə nöqtə qoya bilərik. Bu mənada, Qarabağın işğaldan azad edilməsi onun bütün 17 illik prezidentlik dövrünü səciyyələndirməyə, qiymətləndirməyə bəs edir. Azərbaycan Prezidenti Qarabağın işğaldan azad edilməsi uğrunda 17 il ərzində sistematik şəkildə, məntiqi ardıcıllıqla apardığı gərgin diplomatik-siyasi mücadilənin yekun nöqtəsini (daha doğrusu "!"-nı) məhz 2020-ci ildə qoymağı qərara aldı.

Zaman planlaması da tamamilə düzgün seçilmişdi. Dünyadakı və bölgədəki geopolitik proseslərin bütün şərtləri bizim üçün əlverişli məcrada cərəyan etdiyi bir zaman kəsimində başladı 27 sentyabr əks-hücum əməliyyatımız. Və beləliklə, 2020-ci il 30 illik (əslində 200 illik) tarixçəsi olan yeni "Qordi düyünü"nün -- Qarabağ münaqişəsinin həllinə öz damğasını, möhürünü vurdu. İlham Əliyevin sərkərdəlik etdiyi, Ali Baş Komandanı olduğu yenilməz Azərbaycan Ordusu "Dağlıq Qarabağ münaqişəsi" anlayışını və məkrli "status kvo" siyasətini tarixə gömdü, cəhənnəmə göndərdi. Beləliklə, 200 ilin probleminin həllini öz içinə sığdıran bir ilin canlı şahidləri olduq. Çingiz Aytmatovun məşhur "Əsrə bərabər gün" romanının adında ehtiva olunduğu kimi İlham Əliyev 2020-ci ili əsrə bərabər ilə çevirməyi bacardı. Açığı, heç kəs bu möcüzəvi hadisənin məhz 2020-ci ildə baş verəcəyini və məhz 44 günə tamamlanacağını gözləmirdi. Bunun da heç şübhəsiz ki, ən müxtəlif obyektiv-subyektiv səbəbləri və izahı var.

Tarixi həqiqətlərə ekskurs etsək görərik ki, İlham Əliyev İkinci Qarabağ müharibəsində Bismarkın prinsipi ilə hərəkət etdi. Tarixçilər yaxşı bilirlər, Otto fon Bismark dağınıq və işğal altında olan alman torpaqlarını hərb yoluyla birləşdirməyə hazırlaşarkən, belə bir dahiyanə strategiyadan çıxış etmişdi: "Gəlin, biz əvvəlcə torpaqlarımızı alaq, birləşdirək, ondan sonra nəyi səhv, nəyi düz etmişik, bunu isə tarixçilərin öhdəsinə buraxarıq, onlar özləri düzgün qiymət verərlər". İlham Əliyev də dünyada bizim ədalətli müharibəmizə kimin obyektiv, kimin qərəzli yanaşacağını öncədən hesablasa da, bunu ciddi problemə çevirməməsi ilə, tərəddüdlərə yol verməməsi ilə tamamilə düzgün mövqe seçmiş oldu. 44 gün ərzində erməni lobisinin satın aldığı dünya KİV-lərinin, Sorosun beynəlxalq miqyasda aktivləşmiş təsir agentlərinin, "qara piar" şəbəkəsinin, Rusiya mətbuatında və ekspert camiəsində kök salmış ermənipərəst dairələrin və Fransa prezidenti Emmanuel Makronun Azərbaycana qarşı təşkil etdikləri total "feyk-informasiya" hücumunun və qaralama təbliğatının bütün gücünə və həyasızlığına rəğmən Azərbaycan Prezidenti bir an belə olsun tərəddüd etmədi və tutduğu prinsipial mövqeyindən geri çəkilmədi. Ordumuz qarşıya qoyulmuş ülvi məqsədi həyata keçirmək üçün sona qədər qətiyyət və əzmkarlıq göstərdi, düşmənin başı Azərbaycan Ordusu, Azərbaycan Xalqı və Azərbaycan Liderinin birliyindən ərsəyə gələn "Dəmir Yumruq"la əzildi.

Amma "Dəmir Yumruq" düşmənin başına enməsindən öncə olduqca ilginc proseslər yaşanmışdı. Nikol Paşinyanın məqsədyönlü təxribatları nəticəsində başlamış İkinci Qarabağ müharibəsi ermənilərin özü üçün tamamilə gözlənilməz, bizim üçünsə gözlənilən idi. Birinci Qarabağ müharibəsinin nəticələrindən və Paşinyan --Tonoyan cütlüyünün "yeni işğal, yeni ərazilər" kimi sərsəm planlarından sərməst olmuş erməni ictimaiyyəti reallıq hissini tamamilə itirmişdi. Sıravi ermənilərdən tutmuş Ermənistan dövlətinin cari siyasətini formalaşdıran rəhbər şəxslərə qədər, düşmən ölkədə hər kəs uydurma "tarix" havası ilə, "Böyük Ermənistan" xülyası ilə və bir-birindən sərsəm miflərlə yaşayırdı.

Məkr və şər yuvası olan erməni kilsə institutu bir yandan, "Daşnaksütyun" ideoloqları və "Njdeizm" faşist ideologiyası digər yandan istər Ermənistan ermənilərinin, istər bizim Qarabağ bölgəmizdə yuva salmış separatçı erməni icmasının, istərsə də dünya erməni diaspor fəallarının beyinlərini tamamilə "yumuş" və miflərlə zəhərləmişdilər. Həmin uydurma miflər aşağı-yuxarı bütün ermənilərə erməni xalqının "böyük"lüyünü, Ermənistan ordusunun "məğlubedilməz"liyini, Qarabağın bir daha heç vaxt Azərbaycana qaytarılmayacağını, erməni xalqının "ən qədim" və "ən mədəni xalq" olduğunu təlqin etmiş və ermənilər də bütün bu yalanlara, uydurmalara, həyasız "nağıl"lara inanmışdılar. Daha doğrusu, inandırılmışdılar. Erməni cəmiyyəti bu miflərin sayəsində total şəkildə zombiləşdirilmişdi. Bütün ermənilər türkofobiya mərəzinə yoluxdurulmuşdular. Anti-Türkiyə və anti-Azərbaycan siyasəti son 30-32 il ərzində bir-birini əvəz edən bütün erməni siyasi elitaları üçün, müharibə canisi sayılan Ermənistan liderləri üçün ənənəvi normaya çevrilmişdi. Başqa sözlə desək, ölkənin birinci şəxslərindən tutmuş taksi sürücülərinə və idmançılara qədər, bütün Ermənistan cəmiyyəti "xəstələnmişdi", işğalçı xalq psixolojisinə köklənmişdi, "Miatsum" planının əsirinə çevrilmişdi.

Lakin bu xəstə cəmiyyəti durdurmaq, bu işğalçı psixologiyanı tar-mar etmək, bu mifləri dağıtmaq və ermənilərin gerçək üzünü, faşist-vandal xislətini açıb bütün dünyaya göstərmək lazım idi. Necə deyərlər, erməni xalqının eyiblərini, eybəcərliklərini və yalan üzərində formalaşdırılmış obrazını örrt-basdır edən maskanı yırtmağın zamanı nəhayət ki, yetişmişdi. Bu mühüm tarixi missiya da məhz İlham Əliyevin üzərinə düşdü. İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında açıq debatdakı üstünlüyü və "Valday" Diskussiya Klubunun forumundakı parlaq çıxışı ilə başlayan, MDB dövlət başçılarının Aşqabad sammiti ilə Njdeizmin ifşası ilə davam etdirilən və nəhayət 44 günlük müharibə dönəmində dünyanın ən nüfuzlu KİV-lərinin nümayəndələrinə verdiyi müsahibələri və açıqlamaları ilə yekunlaşan informasiya savaşı 200 il ərzində uydurulmuş, araya-ərsəyə gətirilmiş erməni miflərinin tamamilə dağıdılması, tarixin zibilliyinə gömülməsi ilə nəticələndi.

Lap açıq dillə desək, İlham Əliyev erməni xalqının üzündəki maskanı cırıb dünya ictimaiyyətinin ayaqları altına atdı. Azərbaycanın dövlət başçısı Fransa prezidentindən tutmuş BBC-nin davakar müxbirinə kimi hər kəsə göstərdi ki, buyurun, sizə mədəni millət kimi sırınmış və sizin də bizə mədəni millət kimi təqdim etməyə çalışdığınız ermənilər 30 ilə yaxın müddətdə işğal altında saxladıqları torpaqlarımızda tarixi, mədəni və dini abidələrimizi dağıdıblar, Ağdamı "ikinci Xirosima"ya və ya "Ruhlar şəhəri"nə çeviriblər, Füzulini yarımsəhra vəziyyətinə salıblar, ümumən, bütün Qarabağda daşı daş üstə qoymayıblar. Bir sözlə, İlham Əliyev Qarabağdakı erməni vandalizminin dəhşət-vəhşət saçan qorxunc nəticələrini mədəni Qərbin, beynəlxalq təşkilatların üzünə çırpdı. Azərbaycan Prezidenti dünyanı fakt qarşısında qoydu. Danılması, inkar olunması, görməzdən gəlinməsi mümkün olmayan əlahəzrət fakt qarşısında!

Təcrübə göstərdi ki, ermənilər və onların rəhbərliyi, eləcə də xaricdəki erməni diasporu, erməni lobbistləri Birinci Qarabağ müharibəsindən sonra işğalçı uğurlarından yaranmış eyforiyanın sərməstliyini yaşayarkən, İlham Əliyev 17 il ərzində ardıcıl şəkildə ölkənin hərbi potensialını artırmaqla, peşəkar ordu quruculuğu ilə məşğul oldu. Ordumuz bütün beynəlxalq göstəricilərinə görə bu illər ərzində dünyanın ən güclü orduları səviyyəsinə yüksəldi. Nəticələr də göz önündədir. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun göstərdiyi yüksək döyüş performansı bu günləri dünyanın bütün hərbi qurumları tərəfindən təqdir edilir və öyrənilir. Hətta ABŞ ordusu və NATO da Ordumuzun 44 günlük savaşın gedişində istifadə etdiyi döyüş taktikalarını, relyef şəraitinə uyğun çevik manevr qabiliyyətini, psixoloji üstünlük imkanlarını, ən son hərbi texnologiyaların uğurlu tətbiqatını müsbət nümunə kimi təqdim edir. Bu, Azərbaycan kimi gənc ölkə və Azərbaycan Ordusu kimi gənc bir ordu üçün həqiqətən də misilsiz uğurdur, inanılmaz nailiyyətdir.

Dünya hərb tarixində bu cür istisna hallara az-az təsadüf etmək mümkündür. İndiyə qədər tarixdə cəmi bir neçə ölkə çox qısa müddətdə öz gücünü, iqtisadi resurslarını, insan potensialını toparlayıb və qalib ordu qurmağa müvəffəq olub. Məsələn, keçmiş Sovetlər İttifaqı Hitler Almaniyasını darmadağın edən belə bir ordunu 20 ilə qurmuşdu. Həmçinin, İsrail də təxminən elə o qədər müddət ərzində olduqca güclü bir ordu qurmağı bacarmışdı. Məşhur "Altı günlük müharibə" zamanı birləşmiş ərəb ordularının (Misir, Suriya və İordaniya orduları) İsrail ordusu tərəfindən tamamilə darmadağın edilməsi buna əyani sübutdur. Azərbaycan isə daha qısa zaman çərçivəsində dünyanın ən müasir silahlarla təchiz olunmuş, ən yaxşı təlim görmüş ordularından birini qurmağa nail oldu. Bu isə ilk növbədə məhz İlham Əliyevin xidmətinin nəticəsidir. Bu günkü güclü və müasir Ordumuz İlham Əliyevin əsəridir. İlham Əliyevin qurduğu Ordu 2020-ci ili bütün dünya azərbaycanlıları üçün, bütün Türk Dünyası üçün "Qarabağ ili"nə çevirməyi bacardı.

Ancaq İlham Əliyevin missiyası hələ bitməyib. O, bir sərkərdə kimi, Ali Baş Komandan kimi 44 günlük savaş sayəsində 30 illik işğal tariximizi Zəfər tariximizə çevirməklə tarix yazsa da, lakin qurucu lider kimi də onun üzərinə çox böyük bir vəzifə düşür. Belə ki, Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş şəhər və kəndlərimizdə böyük quruculuq və bərpa işləri aparılmalıdır. Erməni vandallarının çəyirtkə kimi gəlib keçdikləri və viranə qoyduqları əraziləri yenidən qurmaq, ora həyat və sivilizasiya gətirmək lazımdır. Biz əminik ki, dövlət başçımız yenə də milli birliyimizə və həmrəyliyimizə söykənərək, "Qarabağa qayıdış" layihəsini uğurla həyata keçirməklə buna nail olacaq. Prezident İlham Əliyevin "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalaması da elə bu məqsədə xidmət edir.

Bu yazının sonunda bütün diqqətləri "realistik nəzəriyyə", "siyasi realizm" kimi istilahların müəllifi, məşhur amerikalı politoloq və diplomat Hans Morgentaunun bütün dünya siyasətçilərinin və ekspertlərin stolüstü kitabına çevrilmiş "Politics Among Nations. The Struggle for Power and Peace" ("Millətlər arasındakı siyasi münasibətlər. Hakimiyyət və sülh uğrunda mübarizə") kitabının əsas məğzinə, ana xəttinə yönəltmək istəyirəm.

Morgentau yazırdı ki, "beynəlxalq münasibətlər ideallıqdan tamamən uzaq olduğuna görə, hazırda beynəlxalq siyasət hər dövlətin öz millətinin gücünün artırılması, digər millətlərin gücünün zəiflədilməsi prinsipinə söykənir". Maraqlıdır ki, amerikalı strateq-nəzəriyyəçinin hələ 40-cı illərdə müşahidə və xarakterizə etdiyi dünya siyasətindəki həmin çılpaq həqiqət bu gün də öz qüvvəsini saxlamaqdadır və keçərlidir. Hazırki geopolitik proseslərə diqqət etsək, əksər dövlətlərin bir-birinə qarşı münasibətdə məhz Morgentaunun qeyd etdiyi prinsipdən çıxış etməsinin şahidi olarıq.

İxtisasca diplomat olan və böyük siyasi təcrübə məktəbi keçmiş İlham Əliyev də çeşidli beynəlxalq təşkilatların, xüsusən də ATƏT-in Minsk qrupunun turist-diplomatlarının 28 il ərzində Dağlıq Qarabağ münaqişəsinin sülh yoluyla çözülməsi istiqamətində real addımlar atmayacağını vaxtında hiss edərək, Morgentaunun prinsipini əməli surətdə tətbiq etməyə başladı. O, bir tərəfdən sülh danışıqlarının məramına sadiq qalaraq Ermənistanla danışıqları ardıcıl olaraq davam etdirdi, digər tərəfdən isə düşməni blokadada saxlayaraq Azərbaycanın iqtisadi cəhətdən inkişaf etdirilməsi və hərbi gücünün artırılması üçün sistemli iş apardı. Beləliklə, 17 illik sistemli və planlı fəaliyyətin nəticəsi olaraq Azərbaycanın gücü bütün parametrlər üzrə Ermənistanın gücünü ölçüyəgəlməz dərəcədə üstələməyə başladı. Bu isə qalibiyyətli müharibə üçün ən etibarlı zəmin idi.



***Əlisahib HÜSEYNOV,***
***Milli Həmrəylik Partiyasının sədri, Birinci Qarabağ müharibəsinin iştirakçısı***